# SİONİZM İMPERİALİZMİN ƏLALTISIDIR

<"xml encoding="UTF-8?>

SİONİZM İMPERİALİZMİN ƏLALTISIDIR

M. Ə

Hazırda yaxın şərq problemi müasir dünyada həlli zəruri olan təxirəsalınma məsələlərindən biridir.

Mühazirəçilər, təbliğatçılar üçün nəzərdə tutulmuş bu kitabçada "Qərb dünyasından" beynəlxalq sionizmdən mənəvi ruh alan İsrailin hakim sionist dairələrinin təcavüzkar siyasəti öz əksini tapmışdır.

## SİONİZMİN MƏHƏK DAŞI

Sülhsevər xalqlar üçün nifrət ideologiyası olan sionizm bir cərəyan kimi x1x əsrin sonunda yaranmışdır. Avstriya jurnalisti Teodor Hertslin (1860- 1904) 1896- cı ildə nəşr etdirdiyi "Yəhudi dövləti" adlı kitabçası sionizmin ideoloji əsası oldu.Hertsl öz kitabçasında bu və ya digər ərazidə yəhudilərin cəmləşdirilməsi ideyasını təbliğ etmişdir.

Məlumdur ki, siyasi sionizm əsas ideyasını orta əsrlərdə genişlənmiş dini sionizmdən əxz etmişdir. Dini sionizm guya Qüdsdəki Sion dağından yer kürəsinin müxtəlif güşələrinə yayılmış Yəhudilərin geri qaytarılmasınının labüdlüyü haqqındakı ideyanı inkişaf etdirir. Siyasi sionizm yarandığı gündən etibarən yəhudi məsələsinin proletariatın sinfi mübarizəsi çərçivəsində mümkün olan həllini inkar etmişdir. Geniş Yəhudi kütləsini siyasi ümumproletar mübarizədən yzaqlaşdıran sionizm də Yəhudi məsələsinin əsil həllindən uzaqdır.